# MULTİKULTURAL DƏYƏRLƏR VƏ İNKLÜZİV TƏHSİLİN DƏSTƏKLƏNMƏSİ

**GÜNAY BƏDƏLZADƏ**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

gunay.badalzade@mail.ru

***Açar sözlər**: inklüziv təhsil, multikultral dəyərlər, cəmiyyət, dəstə*

XXI əsrdə inklüziv təhsil müvafiq konsepsiyalara və dəyərlərə əsaslanan təhsilə yanaşmadır. Ən əsası, inklüziv təhsil ayrı-seçkilik və təcrid olunmamaq üçün effektiv bir vasitədir. İnklüziv təhsil hər zaman mükəmməlliyi və bərabərliyi özündə cəmləşdirən, hamı üçün yüksək keyfiyyətli, əlçatan təhsili özündə cəmləşdirir. İnklüziv təhsil və sosial inklüziya arasındakı əlaqəyə dair son tədqiqatlar göstərir ki, inklüziv təhsil həmyaşıdların qarşılıqlı münasibətləri və öyrənənlər arasında bir çox multikultral dəyərlərin artmasına, multikultral cəmiyyətin yaradılmasına şərait yaradır.

Multikulturalizm liberal bir ideologiya olaraq bir çox dəyərlərin, fərqliliklərin, mədəniyyətlərin hüquqlarının müdafiəsi və onlara imkanların yaradılması üçün ortaya çıxmışdır. Multikulturalizm bərabərlik, azadlıq və ədalət kimi müəyyən dəyərlərdən ilhamlanır və bu dəyərləri özündə cəmləşdirir. Və bu dəyərlər yalnız inklüziv təhsilin yolu ilə zəruri ola bilər. Çünki təhsil hər zaman aparılan mübarizələrin əsas silahı olmuşdur. Təhsil mütərəqqi şəkildə multikultral dəyərləri özündə cəmləşdirən və hazırkı təhsil sitemində mövcud olan çatışmazlıqları, məhdudiyyətləri və qərəzli adətləri tamamilə tənqidi şəkildə qiymətləndirən və həll edən bir təhsilə çevrilməlidir. İnklüziv təhsil qloballaşan dünyamızda multikultral cəmiyyətin formalaşması üçün əsas sütundur.

Bu baxımdan inklüziv təhsil multikultral dəyərlərə əsaslanaraq, təhsildə sosial ədalət, bərabərlik və təhsil bacarıqlarına kömək üçün ədalət prinsiplərinə

əsaslanır. Təhsildə multikultural yanaşma insanlar arasında fərqliliyi qəbul etməyi, qarşılıqlı qəbul edilməyi, hörmət etməyi və insan fərqlərini anlamağı dəstəkləyən bir məktəb mühitini inkişaf etdirir və bütün bu dəyərlər inklüziv təhsili dəstəkləyir. Multikultral cəmiyyətin formalaşdırılması üçün inklüziv təhsil təkcə əlilliyi olan insanların hüquqlarının müdafiəsi ilə məhdudlaşmır. İnklüziv təhsil eyni zamanda irqi, etnik, mədəni və gender stereotiplərini aradan qaldırmağa və irqçilik, xurafat ilə əlaqəli problemlərin həllinə və ya yaxşılaşdırılmasına çalışır.

İnklüziv təhsilin dəstəklənməsi üçün multikultral dəyərləri üç komponentlə əlaqələndirmək olar:

1. Özünü dəyişdirmə;
2. Məktəblərin və təhsil sisteminin dəyişdirilməsi;
3. Cəmiyyətin maarifləndirilməsi.

Daha müxtəlif, multikultural cəmiyyətin formalaşması üçün inklüziv təhsil məktəb sistemində müəllimlərin sinifi təşkil edən çoxsaylı mədəniyyətlər haqqında biliklərini genişləndirməklərini, öz problemlərini və qərəzli fikirlərini nəzərdən keçirmələrini tələb edir. Bu səylər pedaqoqun hər bir şagirdin fərqli, fərdi və mədəni fərqlərini tanımağına, eyni zamanda bu fərqlərin tədris prosesinə necə təsir etdiyini anlamağına kömək edir.

Təhsildə baş verən dəyişikliklər istənilən cəmiyyətdə mövcud olan dəyərləri dəyişdirmək imkanına malikdir. Buna görə də, cəmiyyətdə multikultralizm dəyərləri özündə cəmləşdirən inklüziv təhsillə bağlı siyasət daha geniş istiqamətdə həyata keçirilməlidir.

**Ədəbiyyat**

1. European Commission (2010) Communication from the Commission. Europe 2020 – A strategy for smart sustainable and inclusive growth. COM(2010) 2020
2. http://www.tipii.edu.az/noduploads/document/8588_oxu-materiali-inkluziv-tahsil.pdf
3. Hick, P. & Thomas, G. (Eds.) (2008). Inclusion and diversity in education: Mapping the field. London: Sage.
4. Van Garderen, D., & Whittaker, C. (2006). Planning Differentiated, Multicultural Instruction for Secondary Inclusive Classrooms. Teaching Exceptional Children, 38(3), 12-20